Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: iyun 2024

# İxtisas dili və ixtisas bilikləri üzrə imtahanlar - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Əgər siz Almaniyada işləmək üçün (xüsusilə səhiyyə sahəsində) tələb olunan dil biliklərini ixtisas dili imtahanı (Fachsprachprüfung) ilə təsdiq etməlisinizsə və ya xarici ixtisasınızda çatışmazlıqlar varsa və siz təhsilinizin alman təhsilinə ekvivalentliyini (Kenntnisprüfung) sübut etməli və **bunun üçün Siz yalnız bir imtahandan (ixtisas dili və ya ixtisas bilikləri üzrə imtahanından) keçməlisinizsə**, bu halda siz **yalnız „VisaMetric“ viza servis mərkəzinə** Yaşamaq haqqında Qanunun §16d maddəsinin 5-ci bəndinə uyğun olaraq milli viza üçün müraciət edə bilərsiniz. Siz ixtisas dili imtahanından keçmək üçün və bundan sonra Almaniyada iş axtarmaq üçün həmçinin „Şans kartı“na da müraciət edə bilərsiniz. „Şans kartı“na müraciət etmək sizin üçün daha sərfəli ola bilər, çünki Yaşamaq haqqında Qanunun §16d Bölməsinin 5-ci bəndinə uyğun olaraq rəsmiləşdirilən viza ilə işləməyə icazə verilmir, lakin „Şans kartı“ Almaniyada olduğunuz müddətdə sınaq işi və ya 20 saatlıq əlavə iş imkanı verir.
Viza mərkəzinin ünvanı aşağıdadır:
**D.Əliyeva küçəsi 106, Winter Park Plaza, birinci mərtəbə, Bakı**
Görüş vaxtını təyin etmək üçün link buradadır:
https://www.visametric.com/Azerbaijan/Germany/de/p/terminvereinbarung

**Viza almaq üçün xahiş olunur aşağıdakı sənədlər təqdim edərdiniz:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi və ya Qeyri-Azərbaycan vətəndaşlarına verilən etibarlılıq müddəti bitməyən Azərbaycanda yaşamaq haqqında icazə sənədi *(əsli + 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- İmtahan tarixinin rəsmi təsdiqi
- Tələb olunan dil biliklərini təsdiq edən rəsmi tanınmış dil sertifikatı (həkimlər üçün ixtisas dili və ya ixtisas biliklərinin yoxlanması üçün alman dili biliklərinin B2 səviyyədə olduğunun təsdiqi) *(əsli+ 1 ədəd surəti)*
- İxtisaslaşma haqqında sənədlər (diplomlar/şəhadətnamələr, iş yerindən arayışlar, dil sertifikatları və s.) *(əsli + 1 ədəd surəti)*
- Yaşayış yeri haqqında təsdiq (ölkəyə giriş tarixindən etibarən ən az imtahan tarixinədək olan müddət üçün)
- Ən az üç ayı əhatə edən müddət üçün maliyyə təminatınızı sübüt edəcək dondurlumuş bank hesabı haqqında arayış (bir ay üçün ən az 1.027,-- avro nəzərdə tutulan dondurulmuş bank hesabı) və ya maliyyə imkanının mövcudluğunu təsdiq edən öhdəlik haqqında rəsmi bəyannamə/ Verpflichtungserklärung *(əsli + 1 ədəd surəti)*
- 90 gün müddətinə tibbi sığorta haqqında sənəd (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı)

Almaniyada Yaşamaq haqqında Qanunun §16d maddəsinin 5-ci bəndinə uyğun olaraq imtahanın verilməsi müddəti imtahan nəticələrinin bildirildiyi tarixədək olan vaxtı əhatə edir. İmtahandan keçdikdən və peşə ixtisasının ekvivalentliyinin təsdiqini əldə etdikdən sonra xaricilərlə iş üzrə məsul idarəyə (Yaşamaq haqqında qanunun §20 maddəsinə uyğun) „Şans kartı“ üçün, (Yaşamaq haqqında Qanunun § 20 maddəsinin

1-cü bəndinin nömrə 4-ə uyğun)  iş yeri axtarmaq üçün və ya ekvivalnetliyi tanınan peşə üzrə işləmək məqsədilə yaşamaq icazəsi almaq üçün müraciət edilə bilər.

Yaşamaq haqqında Qanunun § 16d maddəsinin 5-ci bəndinə uyğun olaraq viza üçün işləmə müddəti bir qayda olaraq 1-2 həftəyədək davam edə bilər.  Xahiş olunur nəzərə alın ki, Yaşamaq haqqında Qanunun § 16d maddəsinin 5-ci bəndinə uyğun olaraq, bu viza ilə əmək fəaliyyətinə icazə **verilmir.**